

# MƏNİM CANLI HEKAYƏTLƏRİM

*Ramin* Məmmədov
*yazıçı-publisist*

. . .

Uşaq vaxtlarından kəndimizin ətrafındakı meşənin yaşıl zolaqları arasında gəzib bu gözəlliyə baxmaqdan zövq alırdım. Özü də, yaz vaxtı, yayın yaxınlaşdığı günlərdə bu daha maraqlı olurdu. Çünki, bu vaxtlar burda cərgə ilə düzülmüş müxtəlif növ ağaclar hər biri özünəməxsus qaydada tumurcuqlayır, cır alça, cır alma çiçəkləyir, nəğməkar quşlar süzür, göylərə baş vurur, cırcıramaların cırıltısıətrafa yayılırdı.

Ağacların arası ilə keçib irəli gedirdim, orada çox da geniş olmayan bir çəmənlik sahə gəl-gəl deyirdi adama. Bu çəmənlik yabanı bitkilərlə, cürbəcür ağaclarla əhatə olunmuşdu deyə, daha qəşəng görünürdü.

Mən hər meşəyə gedəndə bu çəmənliyə də ayaq basır, orada bir sakitlik görür, rahatlıq tapırdım, təbiətin gözəlliyini daha yaxşıseyr edir və duyurdum. Ecazkar bu gözəllik qəlbimdə yer alır, canıma hopurdu. Hər gəlişimdə dəçəmənliyin ortası ilə salınmış cığırla bir ağbirçək qadının hərəkət etdiyini görürdüm. Onun başında qara örtük, əynində qara paltar, ayağında nazik dəridən,çus deyilən ayaqqabı olurdu. O, bu cığırla çəmənliyin axırına kimi gedir, meşəyəçatanda kimisə axtarırmış kimi, o tərəf bu tərəfə həyəcanla boylanırdı. Özü də bunu davamlı edirdi. Orada heç kəsin olmadığını gördükdə, bir neçə addım irəliləyir, sonra yenə də boylanırdı. Sakit, əhvalsız təbəssümlə həmən cığırla geri qayıdırdı, cığırın bu başında meşəyəçatan kimi dayanırdı və boylanırdı, o tərəflərə diqqətlə baxırdı. Bəzən dəçevrilib arxaya baxırdı. Sonra da çəmənliyin ortasında, cığırın yanında yerləşən iri daşın üstündə oturar, dərin xəyala dalardı. Mən ondan heç nə soruşmurdum, onun daim fikirli olması və gah çəmənliyin o başından, gah da bu başından meşəyə tərəf, cığırın səmtinə boylanması mənim uşaq düşüncəmdə bir çaşqınlıq yaratmışdı. Bir dəfə o məndən soruşdu ki, bala sən kimin oğlusan? Cavab verdim. Amma çox istəyirdim ki, soruşum, nəüçün bu o hər dəfə bura gəlir burda saatlarla gəzir, çəmənliyin sonuna, çığırın meşəyə uzandığı yerdə dayanır və meşəyə boylanır!? İsti günlərdən birində mən gəzə-gəzə yenə də gəlib çatdım bu çəmənliyə. O qadın əvvəlki qaydada cıgırla gedirdi, meşəyə boylanırdı. Bu dəfəözümdə güc toplayıb:

- Siz kimisə gözləyirsiz? - deyə soruşdum. Bəlkə mən o adamı tanıyıram, haradasa görmüşəm, ona deyim ki, siz onu axtarırsız. Nənə mənə diqqətlə baxdı, başını aşağı tutdu, bir qədər fikirə getdi, dərindən nəfəsaldı. Sonra üzünü mənə tərəf çevirib dedi:

- Bala mən oğlumu gözləyirəm, amma sən onu tanımırsan, onu heç yerdə görə bilmərsən. O, müharibədən qabaq hər gün bu çəmənliyə gələrdi. Lap odun, şax üçün meşəyə gedəndə də gəlib burda oturub dincələrdi, saatlarla quşların səsini dinləyə, çəmənliyə, meşəni seyr edərdi. 1941-ci ildə nemslər bizə hücum etdi. Oğlum da müharibəyə yollandı, amma bu günə kimi ondan heç bir xəbər yoxdur. Mən də fikirləşirəm ki, bəlkə düşmən əlinə keçib. Amma ümidvaram ki, oğlum gələcək, özü də ilk növbədə bu çəmənliyə gələcək, burada dincini alıb sonra evə gələcək. Ona görə də neçə illər ötməsinə baxmayaraq, mən hər gün gəlirəm bu yaraşıqlıçəmənliyə, hər dəfə də fikirləşirəm ki, yəqin elə bu gün gələcək mənim balam.

Bu yaxınlarda kəndə getmişdim, meşəyə də yolum düşdü. Qulaqlarım tutulurdu ağacların söhbətindən. Əyləşdim bir yekə daşın üstündə, ətrafımda ağ qovaq, qara qovaq, cağan, cır fındıq, cır alma, yemişan ağacları, qaratikan, ağ kol, şilgir, böyürtkən kolları xısın-xısın danışırdılar.

Əvvəlcə iradlar ortaya qoyuldu. Qaratikanla şilgiri əsaslı günahlandırmağa başladılar. Qaratikanı insanları mütəmadi sancmaqda, şilgirisə ağaclara sarmaşmaqla geniş yerləri zəbt etməkdə və faydalı ağacların inkişafına, məhsuldarlığına maneə olmaqda günahlandırırdılar. Ağ qovaq qara qovmağa sual verib bir neçə məsələni aydınlaşdırmaq istədiyini bildirdi. O, hövsələsizliklə ağ qovağın sözünü kəsib dedi ki, cır alma ona bəslədiyi yersiz, haqsız kin-küdurətindən əl çəkmir. Bu yandan cağan ağacıçoşdu, qışqıra-qışqıra dedi ki, qumru quşu onun budaqlarında yuva qurub, amma bircə dəfə də olsun bir dimdik su gətirməyib, onu amansız istilərdən xilas etmək üçün. Bir sözlə söhbət yamanca qızışırdı. Di gəl ki, bu zaman hava tutuldu, göy guruldadı, şimşək çaxdı, bərk yağış yağdı, mən durub qayıtdım kəndimizə.

Tülküəməlli başlı qocalıb lap taqətdən düşmüşdü. Bu həmən o tülkü idi ki, neçə-neçə körpələrin anasına-ana dovşanlara min cür hiylə qurub onların başınıəkmiş, balalarını yetim qoymuş, bununla da südəmər körpə dovşanları məhvə məhkum etmişdi.

Qoca tülkü indi asan yemək arzusuyla yeni hiylələrəəl atırdı. Meşədə yaranmış müvəqqəti sakitlikdən istifadə edib asta-asta yaxınlaşdı dovşana, ensiz və uzunsov qulaqlarını bir qədər sallayıb, onunla dostluq etmək istədiyini bildirdi. Dovşan tülküyə tərs-tərs baxıb, qulaqlarını dik tutub,sərt cavab verdi, mənim səninlə dostluğum tutmaz, - dedi. Sən haramzadasan, müftəxorsan, oğrusan, hiyləgər və mərhəmətsizsən, rəhmsizsən. Min bir hiylə qurub meşədəki quşların başına oyun açmısan, onları“ustalıqla”ələ keçirib, yeyib aciz balalarının məhvinə səbəb olmusan. Siçanları yeməklə bir az xeyirin dəyirsə də, yaxındakıkəndin zəhmətlə ortaya çıxarılan toyuqlarından tutmuş meşədə gizlədilən tikələrə qədər hər şeyi oğurlayırsan. Hiylə qurub bizim avam dovşanlarıələ keçirir, qanına qəltan edirsən - parçalayıb yeyirsən. Ələlxüsus da bacardığın o hiylələrin gücünə kifayət qədər ana dovşanları məhv edib, bala dovşanları yetim qoymusan. Bunların hamısını yaxşı bilirəm. Mənə hiylə qura bilməzsən, get tayını tap.

Fırıldağının baş tutmadığını duyan halsız, fırıldaqçı qoca tülkü suyu süzülə-süzüləçıxıb getdi.

!

Düz qırx iki ilin - 1979-cu ilin söhbətidir, paytaxtımızda isti havadır, göydən od yağır. Bakı Dövlət Universitetinin Tarix fakültəsinəümidlə imtahan verirəm. Görünür yenə də yaxşı hazırlaşmamışam, ona görə də orduda xidmətdən əvvəl olduğu kimi, bu dəfə də kəsildim. İmtahan götürən müəllim gözlərini zilləyib mənə baxır, mən də baxışımı bütün kəskinliyilə yönəltmişəm ona.

- Hə, nə istəyirsən, sözlü adama oxşayırsan? - dedi müəllim.

- Oxuyub mütəxəssis olmaq istəyirəm, - cavab verdim mən.

- Get yaxşı hazırlaş!

- Başüstə!

Gəldim Razin (indi Bakıxanov) qəsəbəsində yaşadığım "Bakinskiy raboçiy" zavodunun yataqxanasına. Otaq yoldaşlarım sifətimdən, nəzərlərimdən duydular, - mən qəbul ola bilməmişəm... Özümüçox sındırmadım.

Səhər tezdən getdim Balaxanı qəsəbəsində tornaçı işlədiyim zavoda, yaxınlaşdım kadrlar şöbəsinə, ərizəmi təqdim etdim. "Tələsmə, bir-iki ilə sənə mənzil də verəcəklər", - dedi, şirin cöhrəli xanım. Təşəkkürümü bildirdim, haqq-hesab edib sağollaşdım.

Qayıtdım yataqxanaya, dərslik və b. kitablarımı iki çamadana doldurub, axşam qatarla yola düşdüm Sibirə tərəf. Səfərim uzun çəkdi, - düz on iki il. Cavanlıq illərimdən səmərəli istifadə elədim. Kitabxanalar, redaksiyalar, məktəblər əsas görüş vəəyləncə yeriməçevrildi. Pis-yaxşı, irili-xırdalıüç təhsil aldım... Amma, illər ötəndən sonra elə bir zaman kəsiyinə gəlib çatmışdıq ki, Vətən dardaydı. Özümə yeganə doğru yol seçdim, - mən Azərbaycana qayıtmalıyam...

Günlər bir-birini əvəz edirdi, leytenant rütbəsi çiynimdə, üstümdə Kalaşnikov silahı, paqondaşlarımla çiyin-çiyinə Ağdam-Tərtər döyüş cəbhəsinə, hərbi əməliyyatlar gedən bölgəyə yollandım. Müharibədən bir neçə günlük Bakıya qayıdanda, elm, mədəniyyət ümmanı kimi yaddaşıma həkk olunmuş Axundov kitabxanasına getməyə də vaxt tapırdım. Günlərin birində oxu zalında tanış bir şəxs gördüm. Təkrar-təkrar onu baxışlarımla sezdim, o da mənə baxırdı.

- Tanış gəlirsən, - dedi müəllim.

- Yadımdadır, Universitetdə məndən qəbul imtahanı götürmüsünüz, - dedim mən.

- Bəs sonrakı illərdə nəüçün gəlmədin?

- Sverdlovskda, Tümendə, Kemerovoda, Nijnevartovska təhsil aldım.

- İndi Bakıda məzuniyyətdəsən?

- Yox, birdəfəlik qayıtmışam, torpaqlarımızın müdafiəsinə.

Müəllim isti bir təbəssümlə gözlərimin içinə baxdı və dedi: "30-cu illərdə ziyalılarımızı Sibirə sürgünə göndərirdilər, indi isə bizim laqeydliyimizdən i, biganəliyimizdənmi, sənin kimi gənclər ora xoşbəxtlik dalınca gedirlər... Çox sağ ol bala, sağ ol ki, Vətənin əzablı, təhlükəli və dar günündə sən də xalqımızla bir yerdə olmağı hər şeydən üstün tutmusan! İnanıram ki, uzaq diyarda işin də pis getmir, vəzifəndən də razı kimi görünürsən.

"Vətən hər şeydən şirindir vəsstündür, Vətənin dərdi mənim dərdimdir müəllim", - dedim mən

" .

İyirmi - iyirmi beş ilin söhbətidi. "Uçaskovı" işlədiyim vaxtlardan söhbət gedir. Rusiyadakı həmvətənlərimiz haqqında, orada çıxan ensiklopedik nəşrlərdəölkəmizə, xalqımıza qarşı törədilən erməni saxtakarlığına dair, soydaşlarımıza qarşı ayaq açan şovinizmləəlaqədar çoxsaylı məqalələrimlə yanaşı yeni kitablarım oxuculara çatdırılır. İş yoldaşlarım dairəvi yığışıb, bir-bir məni təbrik edir, əhsən deyirlər. MTN-nin qəsəbəmiz üzrə müvəkkili yaxınlaşdı, sifətini turşutdu, şübhəli-şübhəli o yan bu yana nəzər saldı, gözlərini aşağı-yuxarı oynatdı:

- Mənə qonşu qəsəbədən rus xanım telefon eləmişdi. Açıqladı ki, bir kapitan var, özü dəəvvəllər Rusiyada işləyib, guya Qarabağ müharibəsiləəlaqədar Vətənə dönüb. Amma əslində sağa-sola yazır, çap etdirir, bir sözlə təxribatla məşğul olur, - dedi.

Paqondaşlarım da çevrilib, qəribə baxışla məni süzdülər...

- Peşəkar müvəkkil, vəzifə borcunuz necə tələb edir, elə də hərəkət edin?... İşinizi vicdanla yerinə yetirin, sənədləşdirin, müvafiq tədbir görün" - dedim mən.

Həyəcanlı bir sükut çökdü ortaya. Nə o ağzını açıb bir kəlmə dedi, nə də o birilər bir söz... Müvəkkil çevrilib, üz tutdu gün batana.

## FAĞIR CANLILARI BİR DAHA HÜRKÜTMƏDİK

Bir dəfə mən doğma Bum kəndinə getmişdim. Dostum, rəhmətlik Xalis müəllimlə bir yerdə o möhtəşəm, ilin bütün fəsillərində başı ağ qar örtüyünə bürünmüş uca Qafqaz dağlarının qarşısında, kəndimizin arxasında məğrur dayanan Kümə dağının zirvəsinə qalxmalı olduq. Bütün gözəllikləri cəmləşdirən təbiətin qoynunda gəzir, onun möcüzələrlə dolu yaraşığından zövq alırdıq. Dağın ətəyində fındıq, qoz, şabalıd kimi mədəni, bir qədər yuxarı qalxdıqdan sonra fısdıq, fələs, palıd, lapand kimi yabanı ağaclar sanki müşahidə edirdilər hər ikimizi. Hər ağacın öz gözəlliyi, hündürlüyü, qalınlığı, yarpaqları heyranlıq əhvalı yaradırdı bizdə. Dərələri, təpələri, meşələri keçdikcə dovşanlar, cüyürlər səsdən hürküb şütüyür, insanlara yaxın olub yer üstündə, bitkilər, otlar arasında yuva quran quşlar qəfil ayaq səsinə iti sürətlə uçub gedirdilər.

Biz iki dost ani olaraq dayandıq, birbirimizə baxıb fikrə getdik, meşədəki canlılara həyəcan bəxş etdiyimizə nigarançılıq keçirdik, ortaya bir sual qoyduq -"bəs üzü aşağı necə gedək ki, bu dilsiz-ağızsız, zərərsiz canlıları bir daha hürkütməyək?" Hərəkətlərimizə nəzarət etmə, asta yerimək, ucadan danışmamaq qərarına gəldik. Qərarımıza sadiq olaraq, asta, sakit üzü aşağı endik, heç bir canlının rahatlığını pozmadıq, onları bir daha hürkütmədik...

*2021*